

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 236 (21.646)

10 dekabr 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ümummilli lider Heydər Əliyev siyasi xəttinin bəhrələri

### *Babək rayonunun Hacıvar və Badaşqan kəndlərində yeni sosial obyektlər istifadəyə verilib*

Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yeni inkişaf dövrünü yaşayır. Bütün sahələrdə uğurlu islahatlar həyata keçirilir, kompleks quruculuq işləri aparılır. Yaşayış məntəqələrinin inkişafı, yeni iş yerlərinin açılması insanların rahat yaşayışını təmin etmişdir. Uğurlu sosial islahatlar və aparılan quruculuq işləri Naxçıvan Muxtar Respublikasının da şəhər, qəsəbə və kəndlərini abad və müasir görkəmə qovuşdurmuşdur.

Dekabrın 9-da Babək rayonunun Hacıvar və Badaşqan kəndlərində yeni sosial obyektlər istifadəyə verilmişdir.

## Hacıvar kənd yolu yenidən qurulub

Hər bir yaşayış məntəqəsinin inkişafı onun yolundan başlayır. Bu amil əsas götürülərək muxtar respublikada kənd yolları yenidən qurulur.

Dekabrın 9-da Hacıvar kənd avtomobil yolu istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, sakinləri təbrik etmiş, yolda görülən işlərlə maraqlanmışdır.

Bildirilmişdir ki, Hacıvar kənd avtomobil yolu müasir tələblər səviyyəsindədir. 4,7 kilometrlik kənd yolu genişləndirilərək asfalt örtük verilmiş, kənddaxili məhəllə yolları yenidən qurulmuşdur. Yolun üzərində 68 su keçidi qoyulmuş, 1250 metr beton kanal çəkilmişdir.

## Hacıvarda yeni kənd mərkəzinin açılışı olmuşdur





Dekabrın 9-da Hacıvar Kənd Mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, mərkəzdə kənddə fəaliyyət göstərən dövlət qurumları üçün müasir iş otaqları ayrılmışdır. Binanın birinci mərtəbəsində rabitə evi, polis sahə məntəqəsi, kitabxana, baytarlıq və feldşer-mama məntəqələri, ikinci mərtəbədə isə Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, statistika otağı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə və 44 yerlik iclas zalı yerləşir.

Ali Məclisin Sədri baytarlıq məntəqəsi ilə tanış olmuş, Hacıvar kəndində heyvandarlığın inkişafı və baytarlıq xidmətinin təşkili ilə əlaqədar tapşırıq vermişdir.

Rabitə evində 384 yerlik müasir ATS quraşdırılmış, dayanıqlı rabitə və sürətli internet xidmətinin göstərilməsi təmin edilmişdir. Poçt bölməsində müvafiq xidmətlərlə yanaşı, əhaliyə bank xidməti də göstəriləcəkdir. Kənd kitabxanasının fondunda 5287 ədəbiyyat vardır.

Kənd mərkəzində Yeni Azərbaycan Partiyası Hacıvar kənd ərazi ilk təşkilatı üçün də iş şəraiti yaradılmışdır. Partiyanın 114 üzvü vardır ki, onlardan da 52-si gənc, 49-u isə qadınlardır.

Kəndlərdə quruculuq işləri aparılarkən tibbi xidmətin təşkili də diqqət mərkəzində saxlanılır. Hacıvar Kənd Mərkəzində də feldşer-mama məntəqəsi üçün 4 otaq ayrılmış, lazımi tibbi avadanlıqlar qoyulmuşdur. Məntəqə ilə tanışlıq zamanı qeyd olunmuşdur ki, bu il kənddə 43 hamilə qadın və 28 doğuş qeydə alınmışdır. Hamilə qadınların və uşaqların qidalanmasına, peyvənd işinin təşkilinə xüsusi diqqət yetirilir.

## Hacıvarda müasir xidmət sahəsi yaradılmışdır



Dekabrın 9-da Hacıvar kənd xidmət mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Mərkəzdə bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları olmaqla 2 mağaza fəaliyyət göstərir. Burada 5 kənd sakini işlə təmin olunmuşdur. Mağazalarda yerli məhsulların satışına daha çox üstünlük verilir. Xidmət mərkəzində kənd sakinlərinin fərdi təsərrüfatlarında istehsal etdikləri 20 çeşiddən artıq məhsul satışa çıxarılmışdır.

Sonra kənd sakinləri ilə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov aparılan quruculuq işlərindən sonra Hacıvar kəndinin muxtar respublikanın abad yaşayış məntəqəsinə çevrildiyini bildirərək demişdir: Babək rayonunun Hacıvar kəndi dayanıqlı elektrik enerjisi, qaz və rabitə xidməti ilə təmin olunmuş, təsərrüfatların su təminatı yaxşılaşdırılmış, avtomobil yolu yenidən qurulmuş, məktəb binası, kənd və xidmət mərkəzləri istifadəyə verilmiş, icra strukturları, feldşer-mama məntəqəsi, baytarlıq məntəqəsi və kitabxana üçün müasir iş şəraiti yaradılmış, sakinlərin rahat yaşayışı təmin edilmişdir. Bütün bunlar ölkəmizdə ulu öndərimiz Heydər Əliyev tərəfindən yaradılan sabitliyin və əsası qoyulan iqtisadi inkişafın Azərbaycan Respublikasının Prezidenti tərəfindən layiqincə davam etdirilməsinin nəticəsidir. Eyni zamanda bu işlər ölkəmizdə insanlara göstərilən qayğının və dövlət-xalq birliyinin daha bir ifadəsidir.

Ali Məclisin Sədri demişdir: Dövlətimiz tərəfindən Hacıvar kəndində həyata keçirilən tədbirlər, aparılan quruculuq işləri sakinlərin rahat yaşayışına hesablanıb. Tikilənləri, quruluanları qorumaq, onlardan səmərəli istifadə etmək və ölkəmizin inkişafına töhfə vermək isə sakinlərin qarşısında duran vəzifələrdir. Hər kəs çalışdığı sahədə öz işini layiqincə yerinə yetirməli, torpaqlar əkilməli, təsərrüfatlar genişləndirilməli, dövlət qurumları bundan sonra da səmərəli fəaliyyət göstərməli, dövlət-xalq birliyinin nəticəsi olaraq sakinlər ölkəmizin inkişafında pay sahibi olmalıdırlar.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin layiqincə yerinə yetiriləcəyinə əminliyini bildirmiş, kənddə aparılan quruculuq işləri münasibətilə sakinləri təbrik etmişdir.

Hacıvar kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Namiq Quliyev çıxış edərək demişdir ki, muxtar respublika yeni inkişaf dövrünü yaşayır, şəhər, qəsəbə və kəndlər yenidən qurularaq müasir görkəm alır. Bu işlər Babək rayonunda da uğurla davam etdirilir. 2005-ci ildə Hacıvar kəndində müasir məktəb binasının açılışı olmuşdur. Bu gün isə əsaslı şəkildə yenidən qurulan kənd yolu, müasir kənd və xidmət mərkəzləri istifadəyə verilir. Artıq Hacıvar kəndində dövlət orqanları lazımi şəraiti olan binada əhaliyə xidmət göstərəcəkdir. Kənd əhalisinin rahat yaşaması və işləməsi üçün bütün şərait vardır. Kənd sakinləri adından minnətdarlıq edən Namiq Quliyev yaradılan şəraitin müqabilində daha səylə çalışacaqlarını bildirmişdir.

* * *

Hacıvar kəndində bir sıra abadlıq işləri də görülmüş, 2500 metr rabitə, eləcə də 700 metr fiber-optik kabel xətti çəkilmişdir. Kəndin elektrik və qaz sistemləri də yenilənmiş, 3250 metrlik elektrik xətti çəkilmiş, transformator yarımstansiyası əsaslı təmir edilmiş, 2500 metrlik müxtəlif diametrli qaz xətlərində təmir-bərpa işləri aparılmışdır. Kənddə suvarma tədbirləri də yaxşılaşdırılmış, yeni suvarma su xətti çəkilmiş, yolkənarı yaşıllıq zolaqlarında suvarma sistemləri quraşdırılmışdır.

*Ardı 2-ci səhifədə*



## Badaşqan kəndində xidmət mərkəzi fəaliyyətə başlamışdır




Kəndlərin inkişafında əsas amillərdən biri də müasir xidmət sahələrinin yaradılmasıdır. Bu tədbirlər bir tərəfdən insanların rahatlığına xidmət edirsə, digər tərəfdən sakinlərin məşğulluğunun təmin olunmasına hesablanıb.

Dekabrın 9-da Badaşqan kənd xidmət mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, mərkəzdə yaradılan şəraitlə maraqlanmışdır.

Bildirilmişdir ki, xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ərzaq və təsərrüfat malları mağazaları fəaliyyət göstərir. Mərkəzdə 4 nəfər işlə təmin olunub. Xidmət mərkəzinin tikintisi zamanı kənddə abadlıq tədbirləri də görülmüş, rabitə xətləri yenilənmiş, yaşıllıq zolaqlarında yeni suvarma sistemləri quraşdırılmışdır.

Ali Məclisin Sədri xidmət mərkəzində yerli məhsulların satışına üstünlük verilməsi və sakinlərin gündəlik tələbatının nəzərə alınması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*Böyük şəxsiyyətlər yaşayıb-yaratdıqları, fəaliyyət göstərdikləri dövrdə siyasi, iqtisadi və digər prosesləri öz xalqlarının rifahı naminə dəyişərək liderlik zirvəsinə yüksəlir, tarix yaradırlar. Tarix yaratmaq isə hər kəsə nəsib olmur. Ümummilli liderimiz Heydər Əliyev müasir Azərbaycanın siyasi tarixini yaradan müdrik şəxsiyyətdir. Adı müasir tariximizə qızıl hərflərlə yazılan ümummilli liderimizin ömür yolu xalqa xidmət nümunəsidir.*

## Əbədiyaşar lider

"Azərbaycanın bəxti onda gətirib ki, tarixinin ən mürəkkəb və həlledici məqamlarında ona dahi şəxsiyyət Heydər Əliyev rəhbərlik edib". Bu, hər bir azərbaycanlının və dünyanın məşhur siyasətçilərinin yekdil fikridir. Həyatının son dəqiqələrinədək xalqının gələcək taleyi haqqında düşünən ulu öndərimiz müstəqil, dünyada öz sözü və yeri olan qüdrətli Azərbaycan dövlətini yaratmışdır.

Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində mühüm yer tutan Heydər Əliyev epoxasının hər bir mərhələsi müasir tariximizin bütöv bir salnaməsini təşkil edir. Onun hər bir səhifəsi, hər bir sətri ümummilli liderimiz Heydər Əliyevin qüdrətli əlləri ilə yazılmışdır. Azərbaycanı bəşər sivilizasiyasının beşiyi olan ölkələrdən biri, xalqımızı isə zəngin və unikal bir mədəniyyətin övladları adlandıran dahi şəxsiyyətin ən böyük xidmətlərindən biri də məhz xalqımızın şərəfli tarixi keçmişini bərpa etməsi, milli-mənəvi irsimizin dəyərlərini, milli adət-ənənələrimizi yaşatması, Azərbaycançılıq məfkurəsinin və milli ruhun hədsiz yüksəlişi, milli özünüdərkin hər cür buxovlardan azad olunaraq, öz həqiqi təsdiqini tapması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularımızın reallaşmasına nail olmasıdır.

Ulu öndərimiz Heydər Əliyevin həyatının mənası Azərbaycan idi. Azərbaycanın inkişafı və tərəqqisi idi. Ümummilli liderimizin Azərbaycana rəhbərliyi dövründə xalqın min illərlə arzusunda olduğu niyyətlər gerçəyə çevrilmiş, Azərbaycan müstəqilliyə qovuşmuş, Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsasları və müstəqillik konsepsiyası hazırlanmışdır.

Xalqımızın böyük oğlu özündən sonra gələcək nəsillər üçün çox zəngin irs qoymuşdur. Bu irs bütöv bir idarəçilik məktəbini, xalqımızın özünütəsdiq, həmrəylik və milli dövlətçilik şüurunu, çağdaş ictimai-siyasi fikrin ən ümdə keyfiyyətlərini özündə ehtiva edir. Milli özünüdərkin yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası ən yeni tariximizdə məhz xalqımızın böyük oğlu Heydər Əliyevə məxsusdur. Onun Azərbaycana rəhbərliyinin birinci dövrü ölkəmizdə ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində möhtəşəm quruculuq dövrü olmuşdur. Qətiyyətlə demək olar ki, müasir müstəqil Azərbaycan dövləti məhz ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətinin birinci dövründə – 1969-1982-ci illərdə yaradılmış təməl üzərində qurulmuşdur. Görkəmli dövlət xadimi ilk dəfə respublikaya rəhbər seçiləndən sonra müasir sənaye komplekslərinin yaradılması, kənd təsərrüfatının, sənayenin, elmin, mədəniyyətin, incəsənətin inkişafı istiqamətində qətiyyətli addımlar atılmış, ölkəmiz sürətlə inkişaf edərək Sovet İttifaqında ən qabaqcıl yerlərə çıxmışdır.

Ümummilli liderimiz 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində bu barədə deyirdi: ***"Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 70-ci illərin bariz əlamətinə çevrildi. 1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".***

Həmin illərdə ulu öndərin qarşıya qoyduğu prioritet vəzifələrdən biri də elmin və təhsilin inkişafı idi. Kənd yerlərində məktəblərin sayının sürətlə artırılması gənc nəslin maarifləndirilməsində, hərtərəfli biliyə yiyələnməsi istiqamətində böyük əhəmiyyət kəsb edirdi. Həmin dövrdə Azərbaycanın şəhər və kəndlərində 700-ə qədər məktəb binası istifadəyə verilmiş, ali məktəblərin sayı 12-dən 17-yə, təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatdırılmışdır. Məhz ulu öndər Heydər Əliyevin gərgin səyi nəticəsində azərbaycanlı gənclər təhsillərini davam etdirmək üçün keçmiş SSRİ-nin qabaqcıl elm və təhsil mərkəzlərinə göndərilmişdir. Həmin gənclər təhsillərini başa vurduqdan sonra yenidən respublikaya dönərək müxtəlif sahələrdə öz fəaliyyətlərini davam etdirmişlər. Bu da sərt sovet rejimində milli kadrların yetişdirilməsi baxımından böyük əhəmiyyət kəsb edirdi.

Sovetlər Birliyi dövründə ulu öndərimiz Heydər Əliyevin Azərbaycan naminə həyata keçirdiyi müdrik siyasətə diqqət çəkən ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***"SSRİ dönəmində Azərbaycanın iqtisadiyyatının, elm və mədəniyyətinin inkişafına, milli kadrların yetişdirilməsinə böyük səylər qoyan Heydər Əliyev nə vaxtsa ölkəmizin müstəqil olacağına inanırdı. Təbii ki, o zamanlar bütün bu işlər görülməsəydi, müstəqil dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsi çox ciddi çətinliklərlə qarşılaşardı".***

1982-ci ildə ümummilli liderimizin SSRİ-də rəhbər vəzifəyə irəli çəkilməsindən sonra Azərbaycanın hərtərəfli inkişafı ilə yanaşı, xalqımızın dünya arenasında tanıdılması və təbliği istiqamətində görülən işlərin miqyası daha da genişləndirilmişdir. 1982-87-ci illərdə Heydər Əliyev şəxsiyyətinə görə keçmiş Sovetlər Birliyində Azərbaycanla hesablaşır, ölkəmizdəki inkişafın qarşısını almağa, torpaq iddiası irəli sürməyə heç kim cəsarət etmirdi. Azərbaycanın inkişafını dayandırmaq, parçalamaq üçün yeganə bir yol vardı – ölkəni Heydər Əliyev inkişaf xəttindən uzaqlaşdırmaq. Nəhayət, 1987-ci ildə bu məkrli plan həyata keçirildi, ümummilli liderimiz rəhbər vəzifədən uzaqlaşdırıldı. Bununla da, Azərbaycanın ağrı-acılarla dolu dövrü başlandı. Ölkəmizin suverenliyinə edilən qəsd tarixi torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğalı ilə nəticələndi, ermənilər tərəfindən Azərbaycan xalqına qarşı Xocalı soyqırımı törədildi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov həmin dövrü təhlil edərək demişdir: ***"Bu dövr nəyi göstərdi? Onu göstərdi ki, Azərbaycanın nicatı Heydər Əliyev ideyalarında, Heydər Əliyev yolundadır. Xalqın bundan kənarda özünütəsdiqi, ölkənin bundan kənarda inkişafı mümkün deyil".***

Azərbaycanın xilası ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu böyük şəxsiyyət ali dövlət vəzifələrində olmadığı dövrlərdə belə, Azərbaycançılıq uğrunda xidmətlərini davam etdirmiş, həyatını təhlükə qarşısında qoyaraq, 1990-cı ilin Qanlı Yanvar faciəsini törətdiyinə görə ozamankı Sovet rəhbərliyini və faciənin digər təşkilatçılarını kəskin ittiham etmişdi. Bu kəskin bəyanatdan sonra milli liderimizin Moskvada yaşaması mümkün olmadı. O, 1990-cı il iyulun 20-də Bakıya gəldi. Lakin burada – vaxtilə qurub-yaratdığı şəhərdə qalmaq, ağır fəlakət anında xalqı ilə bir yerdə olmaq imkanı verilmədiyindən iki gün sonra, iyulun 22-də doğma Naxçıvana qayıtdı. Və buradan bütün Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etdi.

Ulu öndərimizin rəhbərliyi ilə 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında tarixi qərarlar qəbul edildi, muxtar respublikanın erməni təcavüzündən xilas edilməsi, böhranlı vəziyyətdən çıxarılması üçün ardıcıl tədbirlər görüldü. Üçrəngli bayrağımızın ilk dəfə olaraq 1990-cı il noyabrın 17-də ulu öndərin sədrliyi ilə keçirilən Naxçıvan parlamentinin iclas zalında qaldırılması, Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması, SSRİ-nin qorunub saxlanması ilə bağlı keçirilən referendumda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsi, aqrar islahatların keçirilməsinə, Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvan Muxtar Respublikasından başlanılması müstəqil dövlətçilik yolunda atılan uğurlu addımlar idi.

Ölkəmizdə 1969-cu ildə əsası qoyulan dirçəliş və inkişaf strategiyası nəticəsində yaranmış iqtisadi potensial XX əsrin 80-ci illərinin sonundan başlayaraq dağıdılıb bərbad hala salınsa da, 1993-cü ildən sonra yenə bu müdrik insanın böyük iradəsi və səyləri ilə bərpa edilmişdir. 1993-cü ilin iyununda əldən getməkdə olan dövlət müstəqilliyini Azərbaycana dahi şəxsiyyət Heydər Əliyev qaytarmışdır. Dağılıb məhv olmaq təhlükəsi ilə üz-üzə qalan ölkəmizi məhz ümummilli liderimiz təlatümlər burulğanından xilas etmiş, möhkəm ictimai-siyasi sabitlik yaratmış, Azərbaycanı ötən əsrin 70-ci illərindən başlanan quruculuq xəttinə qaytararaq hərtərəfli inkişaf yoluna çıxarmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ulu öndərimiz Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışının zəruriliyindən danışarkən demişdir: ***"Millətlərin gücü və yenilməzliyi onların liderlərindən asılıdır. Lideri olmayan ölkə, xalq müstəqillik əldə edə və yaxud əldə olunmuş müstəqilliyi qoruyub saxlaya bilməz. Xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də ulu öndərimizin ikinci dəfə ali hakimiyyətə qayıdışı Azərbaycanı dağılmaq, bir dövlət kimi siyasi xəritədən silinmək təhlükəsindən xilas etdi. 15 iyun ən yeni tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu".***

Belə bir mürəkkəb vəziyyətdə yeni, müstəqil Azərbaycan dövlətini qurmaq missiyasına başlayan ümummilli lider nadir dövlətçilik zəkası, cəsarəti və sarsılmaz iradəsi ilə demokratik, hüquqi dövlət yaratmağa müvəffəq olmuşdur. Azərbaycan dövlətinin qurucusu, xalqımızın xilaskarı ulu öndər Heydər Əliyev deyirdi ki, ***azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq, möhkəmləndirmək və inkişaf etdirmək ondan qat-qat çətindir.***

Ümummilli lider Azərbaycanın yeni dövr üçün demokratik inkişaf modelini müdrikliklə irəli sürmüş, bu mütərəqqi dəyişikliklərin ictimai şüurda tədricən qəbul olunması zərurətini önə çəkmişdir. Böyük öndərin dövlətçilik konsepsiyası Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini özündə birləşdirən yeni inkişaf modelini yaratmışdır. İctimai-siyasi sabitlik bu modelin əsas dayaqlarından, istinad nöqtələrindən biri kimi çıxış etmişdir. Ulu öndər o zaman qarşıya qoyduğu vəzifələri belə bəyan etmişdi: ***"Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir".***

Ulu öndərimizin uzaqgörən siyasəti nəticəsində ölkəmizin təbii sərvətlərindən səmərəli istifadə edilməsi, "Əsrin müqaviləsi"nin imzalanması, vaxtilə çoxlarının əfsanə hesab etdiyi Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilişinin reallaşdırılması Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin inkişafına, yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan vermişdir. 1993-cü ildən sonra ölkəmizdə aparılan dövlət quruculuğu prosesi hərtərəfli inkişaf edən, müasir, demokratik, yerləşdiyi bölgədə lider ölkəyə çevrilən qüdrətli Azərbaycan Respublikasının yaradılmasına səbəb olmuşdur.

Ümummilli liderimizin bütün ömrü mənsub olduğu xalqa təmənnasız xidmətdə keçmişdir. O nəinki müstəqil Azərbaycan dövlətçiliyinin əbədiliyini təmin etmişdir, həm də əsasını qoyduğu dövlətçilik xəttini davam etdirməyə qabil böyük bir idarəçilik məktəbi formalaşdırmışdır. Dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini Heydər Əliyev məktəbinin layiqli davamçısı olan cənab İlham Əliyevə əmanət etmişdir. Xalqımız Heydər Əliyev siyasətini uğurla davam etdirən cənab İlham Əliyevin rəhbərliyi altında daha böyük uğurlar qazanır. Ötən hər gün Azərbaycanı daha böyük tərəqqiyə qovuşdurur.

İllər, qərinələr ötdükcə Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin tarixi xidmətləri, bir insan ömründə yaratdığı xariqələr daha aydın görünəcəkdir. Zaman keçdikcə ulu öndərimizin böyüklüyünü daha çox hiss edəcəyik. O, Azərbaycanın yalnız bu gününü düşünmürdü, xalqımızın sabahını, dövlətimizin gələcəyini düşünürdü. Mənalı ömrünü öz xalqına həsr etmiş ulu öndərimizin siyasi irsi dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, ümummilli liderimizin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə bundan sonra da faydalanacaqdır.

O, xilaskarlıq üçün doğulmuşdu. Bütün ömrünü bu işə sərf etdi. O, birinci dəfə xalqını gerilikdən çıxarıb yüksəltməklə xilas etdi. İkinci dəfə xalqını parçalanıb məhv olmaq, müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. O, xalqı ilə yaşadı, xalqını yaşatdı. Hələ sağlığında xalqın qəlbində özünə əbədi abidə ucaldan, millətin ümummilli liderinə çevrilən Heydər Əliyev Azərbaycan xalqı durduqca onunla yaşayacaqdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaqdır. Biz – ulu öndərin davamçıları onun yolu ilə gedəcəyik, Azərbaycanı gücləndirəcəyik, müstəqilliyimizi qoruyacağıq".***

**"Şərq qapısı"**

*10 dekabr Beynəlxalq İnsan Hüquqları Günüdür*

## İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi Azərbaycan dövlətinin əsas məqsədidir

***1948-ci il dekabrın 10-da Birləşmiş Millətlər Təşkilatı Baş Məclisi İnsan hüquqları haqqında Ümumi Bəyannamə qəbul etmişdir. Həmin tarixdən etibarən hər il dekabrın 10-u bütün dünyada "İnsan Hüquqları Günü" kimi qeyd olunur.***

Ötən əsrin sonlarında dövlət müstəqilliyini yenidən bərpa edən Azərbaycan Respublikası demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş, Birləşmiş Millətlər Təşkilatının İnsan hüquqları haqqında Ümumi Bəyannaməsinə və digər beynəlxalq konvensiyalara qoşulmuşdur. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə əsas insan hüquq və azadlıqlarının həyata keçirilməsinə əsaslanan yeni dövlət quruculuğunun əsasını qoymuşdur. Məhz insan və vətəndaş hüquq və azadlıqlarının, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi kimi təsbit olunduğu ölkənin Əsas Qanununun qəbul edilməsindən sonra respublikamızda hüquq islahatlarının keyfiyyətcə yeni mərhələsinin başlamasına təkan verilmiş, mühüm normativ-hüquqi aktlar qəbul edilmişdir.

Ümummilli lider Heydər Əliyev tərəfindən imzalanan "İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli Fərman və "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" 1998-ci il 18 iyun tarixli Sərəncam ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərin mahiyyətini və konsepsiyasını dəqiq müəyyənləşdirməklə insan hüquqlarının davamlı inkişafını təmin etmişdir. Azərbaycan Respublikası 1996-2000-ci illərdə insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı mühüm beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. Qeyd etmək lazımdır ki, Azərbaycan Şərqdə ilk dəfə olaraq ölüm cəzasını ləğv edən ölkə kimi tarixə düşmüş, 1993-cü ildə ölüm hökmü üzərində moratorium qoyulmuş, 1998-ci ildə isə bu cəza tamamilə ləğv edilmişdir. Yüksək humanizmin və insanpərvərliyin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu daha da yüksəltmişdir.

Azərbaycan Respublikası 2001-ci ildə "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasını ratifikasiya etmişdir. Avropa Şurasının bu mühüm sənədinə münasibət bildirməklə Azərbaycan mötəbər beynəlxalq təşkilatla sıx əməkdaşlığa hazır olduğunu və insan hüquqlarının qorunması sahəsində öz üzərinə götürdüyü öhdəliklərə sadiqliyini bir daha bəyan etmişdir. Həmçinin Azərbaycanda insan hüquq və azadlıqlarının təmini istiqamətində həyata keçirilən hüquqi islahatların və milli qanunvericiliyin beynəlxalq, Avropa standartlarına uyğunlaşdırılması prosesinin məntiqi davamı olaraq 2002-ci il dekabrın 24-də "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu qəbul edilmişdir. 2006-cı il mayın 9-da BMT Baş Assambleyasında keçirilən seçkilər nəticəsində Azərbaycanın BMT-nin İnsan Hüquqları Şurasına üzv seçilməsi də bu istiqamətdə ölkəmizdə əldə olunan ən mühüm nailiyyətlərdəndir.

Bu gün Azərbaycanda hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Ulu öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ötən müddətdə ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması sahəsində kompleks tədbirlər həyata keçirilmişdir. İnsan hüquqlarının qorunmasını və bu sahədə görülən tədbirlərin genişləndirilməsini daim diqqət mərkəzində saxlayan ölkə başçısının "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq olunması haqqında" 2006-cı il 28 dekabr tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası ölkəmizdə insan hüquq və azadlıqlarının davamlı inkişafına zəmin yaratmışdır. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamına əsasən isə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikasında da insan hüquq və azadlıqları daim diqqət mərkəzində saxlanılır, muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir.

Ölkə başçısının "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuşdur. Belə ki, ötən dövr ərzində Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı, hüquq-mühafizə orqanlarının və məhkəmələrin fəaliyyətinin müasir tələblər nəzərə alınmaqla təşkil olunması, eləcə də onların maddi-texniki bazasının daha da möhkəmləndirilməsi sahəsində mühüm işlər görülmüş, dövlət orqanlarının, o cümlədən məhkəmə orqanlarının müasir texniki avadanlıqlarla təchiz olunması, habelə onların fəaliyyətində yeni informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi istiqamətində bir sıra zəruri addımlar atılmışdır. Müvəkkil təsisatının fəaliyyəti təmin edilmiş, məhkumların hüquqlarının daha səmərəli müdafiəsi məqsədilə penitensiar xidmətin infrastrukturu təkmilləşdirilmiş, hər bir vətəndaşın öz konstitusion hüquq və qanunla qorunan mənafelərinin həyata keçirilməsi, o cümlədən əhalinin yüksəkkeyfiyyətli hüquqi yardımla təmin edilməsi məqsədilə vəkillik institutunun hüquqi statusu müəyyənləşdirilmiş və inkişaf etdirilmişdir.

Bu gün Naxçıvan Muxtar Respublikasında əhalinin müxtəlif sosial qruplarının – ahılların, uşaqların, fiziki qabiliyyəti məhdud şəxslərin, məhkumların və digər kateqoriya şəxslərin hüquqlarının müdafiəsi istiqamətində də mühüm işlər görülür. Belə ki, muxtar respublikada məhdud fiziki imkanlı şəxslərin təhsil alması, intellektual səviyyələrinin yüksəldilməsi, onların cəmiyyətə inteqrasiyası, habelə asudə vaxtlarının səmərəli təşkili daim diqqət mərkəzindədir. Bu məqsədlə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində bu kateqoriyadan olan uşaqların müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılması üzrə məşğələlərin təşkili, müxtəlif sosial xidmətlərin göstərilməsi davam etdirilmiş, bu qəbildən olan uşaqların cəmiyyətə və təhsilə inteqrasiyasını möhkəmləndirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamına əsasən "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikasında qadınların hüquqlarının müdafiəsi, o cümlədən məşğulluğunun təmin olunması da diqqət mərkəzində saxlanılmış, onların fəaliyyəti üçün yaradılan şərait qadınların ictimai-siyasi və sosial-mədəni həyata daha fəal cəlb olunmasını şərtləndirməklə yanaşı, həm də öz potensiallarını sərbəst, səmərəli şəkildə reallaşdırmalarına yol açmışdır. Qadınların, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərin müəyyən peşələrə yiyələnməsi, həmçinin istedad və bacarıqlarının inkişaf etdirilməsi məqsədilə muxtar respublikadakı peşə məktəblərində xalçaçı, dərzi, ağac üzərində oyma kimi kurslar təşkil edilir, xüsusi istedadları ilə seçilən, rəssamlıq, toxuculuq, el sənəti nümunələrini yaşatmağı özünə fəaliyyət sahəsi seçən və asudə vaxtını bu işlərə sərf edən qadınlara xüsusi diqqət göstərilir, onların əl işlərindən ibarət satış sərgiləri keçirilir. Belə tədbirlərin həyata keçirilməsi qadınların istedad və bacarıqlarının üzə çıxarılması, o cümlədən əmək hüquqlarının həyata keçirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir.

Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində görülən işlərin tərkib hissəsi kimi məşğulluq probleminin həlli mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanmış "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2016-cı il 11 yanvar tarixli Sərəncam mühüm əhəmiyyətə malikdir. Artıq muxtar respublikada işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaradılmış, əmək bazarının tələbinə uyğun peşə hazırlığı təşkil olunmuş, işaxtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm işlər görülmüşdür. Bu gün muxtar respublikada həyata keçirilən davamlı sosial-iqtisadi islahatların, o cümlədən əhalinin məşğulluğunun, sosial yardımın ünvanlılığının təmin edilməsinin məntiqi nəticəsidir ki, sakinlərin sosial rifah halı daha da yaxşılaşmış, yoxsulluq səviyyəsi kəskin azalmışdır.

Muxtar respublikada məhkumların da hüquq və azadlıqlarının təmin olunması, saxlanma şəraitinin və gündəlik təminatının yaxşılaşdırılması, peşə vərdişlərinə yiyələnməsi üzrə ardıcıl tədbirlər həyata keçirilir. Bu sahədə görülən işlərin davamı olaraq 2016-cı il fevralın 24-də Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində yeni yaradıcılıq və istehsalat binasının istifadəyə verilməsi məhkumların müxtəlif xalq sənətkarlığı sahələrində fəaliyyət göstərmələrinə stimul vermiş, onların istehsalat sahəsində hazırladıqları əl işləri muxtar respublikada keçirilən müxtəlif sərgilərdə nümayiş olunmuşdur.

Hər bir ölkədə demokratik inkişafın, insan hüquq və azadlıqlarının mühüm göstəricilərindən biri də mətbuat və söz azadlığının təmin olunmasıdır. Naxçıvan Dövlət Teleradiosunun, "Kanal 35" televiziyasının və "Naxçıvanın səsi" radiosunun, "Şərq qapısı", şəhər və rayon qəzetlərinin maddi-texniki bazası gücləndirilmiş, peşəkar jurnalist kadrların yetişdirilməsi və işə cəlbi istiqamətində davamlı və məqsədyönlü işlər həyata keçirilmiş, Naxçıvan Dövlət Televiziyasının internet üzərindən yüksəkkeyfiyyətli yayımına başlanmış, "Şərq qapısı" qəzetinin internet saytı istifadəyə verilmişdir. Söz, fikir, məlumat azadlığı, o cümlədən mətbuatın inkişafı ilə bağlı həyata keçirilən islahatlar, azad mətbuatın fəaliyyətinin getdikcə gücləndirilməsi insanların öz fikrini sərbəst şəkildə ifadə etmək hüququnu təmin etmişdir. Bununla yanaşı, əhalinin informasiya almaq və bunun ən çevik forması olan internetdən istifadə imkanları artırılmışdır. Artıq Naxçıvanın bütün şəhər, qəsəbə və kəndlərində sakinlər genişzolaqlı və sürətli internetdən, İP və rəqəmsal televiziya yayımından, bütün növ rabitə və digər elektron xidmətlərdən istifadə edirlər.

***Muxtar respublikada Konstitusiyamızda təsbit edilmiş insan hüquq və azadlıqlarının daha etibarlı təmin edilməsi istiqamətində işlər daim diqqət mərkəzində saxlanılacaq, bu sahədə səmərəli hüquq mexanizmlərinin tətbiqi bundan sonra da davam etdiriləcəkdir.***

**Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının mətbuat xidməti**

## "Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi" mövzusunda seminar keçirilib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada 55 dövlət orqanı nümayəndəsinin iştirakı ilə "Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi" mövzusunda seminar keçirilib.***



Seminarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli çıxış edərək bildirib ki, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 30-1-ci maddəsinə əsasən, inzibati vəzifə tutan dövlət qulluqçularının illik xidməti fəaliyyəti qiymətləndirilməlidir. Məqsəd dövlət qulluqçusunun il ərzində vəzifəsinin öhdəsindən gəlməsini, tutduğu vəzifəyə dair tələblərin yerinə yetirilməsini qiymətləndirməkdən və dövlət qulluqçusunun gələcək inkişafını müəyyən etməkdən ibarətdir. Komissiya qeyd olunan normanın icrasını təmin etmək məqsədilə müvafiq qaydaları təsdiq edib və cari ildən dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsinə başlanılıb. Qaydalara əsasən dövlət qulluqçusunun yanvar ayının 1-dən dekabr ayının 31-dək olan xidməti fəaliyyət dövrü təqvim ilinin sonunda qiymətləndirilir. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi onun bilavasitə tabe olduğu şəxs tərəfindən həyata keçirilir. Dövlət orqanı üzrə qiymətləndirilmənin nəticələrinə görə yekun hesabat mart ayının 1-dək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilməlidir.

Seminarda komissiyanın sektor müdiri Türkan Gülməmmədli tərəfindən hazırlanmış slaydlarla dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydaları izah edilib. Bildirilib ki, dövlət qulluqçusunun xidməti fəaliyyətinin meyarlara görə qiymətləndirilməsi məqsədilə işlədiyi qurumun rəhbəri tərəfindən hər ilin yanvar ayında dövlət qulluqçusu qarşısında təqvim ili ərzində icra etməli olduğu tapşırıqlar (hədəflər) qoyulur. Dövlət qulluqçusunun xidməti fəaliyyəti peşə bilikləri, xidməti vəzifələrə münasibət, təhlil aparmaq, problem həll etmək və qərar vermək bacarığı, yaradıcılıq və təşəbbüskarlıq, əmək intizamı, iş təcrübəsi və onu bölüşmə, kollektivdə işləmək bacarığı, ünsiyyət, işçilərarası münasibətlər meyarlarına əsasən qiymətləndirilir.

Qiymət 5 və 4.6 qiymətləri arasında olduqda (əla) – dövlət qulluqçusu bu qiymətlə iki il ardıcıl olaraq qiymətləndirilərsə və müvafiq vakant vəzifə mövcud olarsa, onun yuxarı vəzifəyə keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş tədbirlərin görülməsi, qanunvericiliyə uyğun olaraq onun barəsində həvəsləndirmə tədbirlərinin aparılması, rəhbər vəzifələrin tutulması üçün ehtiyat kadrlar siyahısına daxil edilməsi nəzərdə tutulub. Qiymət 4.5 və 3.6 qiymətləri arasında olduqda (yaxşı) – dövlət qulluqçusu bu qiymətlə dörd il ardıcıl olaraq qiymətləndirilərsə və müvafiq vakant vəzifə mövcud olarsa, onun yuxarı vəzifəyə keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş tədbirlərin görülməsi, bu qiymətlə üç il ardıcıl olaraq qiymətləndirilərsə, qanunvericiliyə uyğun olaraq onun barəsində həvəsləndirmə tədbirlərinin görülməsi, dövlət qulluqçusunun iş fəaliyyətinin və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə müvafiq tədbirlərin görülməsi vacibdir. Qiymət 3.5 və 2.6 qiymətlər arasında olduqda (kafi) – dövlət qulluqçusunun iş fəaliyyətinin yaxşılaşdırılması və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə müvafiq tədbirlərin görülməsinə ehtiyac var. Qiymət 2.5 və daha aşağı olduqda (qeyri-kafi) – bu qiymət növbəti qiymətləndirilmə zamanı dəyişməzsə, dövlət qulluqçusunun həmin təsnifatdan olan, lakin vəzifə maaşı aşağı olan digər vəzifəyə keçirilməsi və bu qiymət yenidən növbəti qiymətləndirilmə zamanı dəyişməzsə, o, aşağı təsnifatdan olan inzibati vəzifəyə keçirilir.

Sonda seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti**

*Tədbiri giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb.*

## AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun hesabatı olub

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov çıxış edərək institutun 2016-cı ilə olan yekun rəqəmlərini diqqətə çatdırıb. Bildirib ki, cari ildə 11 iş 24 mərhələdə yerinə yetirilib. Tədqiqat ilində institut əməkdaşlarının 129 elmi əsəri (64-ü beynəlxalq kodlu jurnallarda işıq üzü görüb) çap edilib. Hesabat ilində 8 monoqrafiya, 7 kitab, 3 metodik vəsait, 2 tövsiyə, 107 elmi məqalə, bunlardan da 26 elmi məqalə və konfrans materialı xaricdə nəşr olunub. 2 məqalə, 4 kitab isə işlənilərək nəşriyyata təhvil verilib. Tədqiqat ilində əməkdaşlar bölgəmizə xaricdən gələn ekspertlərlə birlikdə beynəlxalq ekspedisiyalarda iştirak ediblər.

Vurğulanıb ki, 2016-cı ildə institut Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun keçirdiyi müsabiqədə "Naxçıvan Muxtar Respublikasının tətbiq yönümlü perspektivli yabanı və mədəni qida bitkilərinin genofondunun elmi əsaslarla kompleks tədqiqi" adlı qrant layihəsində, eyni zamanda Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun keçirdiyi gənc alimlərin III qrant müsabiqəsində qalib olub. Haliyədə də layihəyə aid tədqiqat işləri davam etdirilir.

Qeyd olunub ki, institutda elmi-tədqiqat işlərinin səmərəliliyinin artırılması üçün herbari fondunun avadanlıqlarla təchizatının yaxşılaşdırılması və ekspedisiya işlərinin uzunmüddətliliyinin təmin edilməsinə ehtiyac duyulur.

Tədbirdə AMEA-nın müxbir üzvləri Əbülfəz Quliyev və Vəli Baxşəliyev çıxış edərək institutun il ərzindəki elmi göstəricilərini qənaətbəxş hesab ediblər.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Tədbirdə institutun fəaliyyətini əks etdirən videogörüntü və elmi nəşrlərdən ibarət sərgi nümayiş olunub.

## Gənc alimin nüfuzlu jurnalda məqaləsi dərc edilib

AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun "Sorbsiya prosesləri" laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Günel Məmmədovanın "Glass Physics and Chemistry" (№5, 2016) adlı beynəlxalq jurnalda məqaləsi dərc edilib. Qeyd edək ki, bu jurnal Tomson reestr siyahısındadır. Məqalə internet üzərindən 40 avroya satışa çıxarılıb.

Məqalədə yerli xammal – qalluazit, dolomit və vulkanik şüşə əsasında kalsium tərkibli qmelinit seolitinin sintezindən bəhs olunur. Alınmış seolitin dehidratlaşma-rehidratlaşma, kation mübadilə xassələri tədqiq olunmuş və oksigen həcmi hesablanmışdır.

Seolitlərin praktiki əhəmiyyəti davamlı olaraq yüksəlir. Son 20 ildə aparılan çoxsaylı tədqiqatlar da bunu sübut edir. Seolitlər karbohidrogenlərin çevrilmələri zamanı katalizator kimi tətbiq olunur. Digər yeni istiqamətlər – üzvi və karbohidrogenlər əsasında sintez, birbirinə yaxın temperaturda qaynayan maddələrin ayrılması, radionuklidlərin yığılması, mineral gübrələrin mikroflorasının yaxşılaşdırılması, sənaye və məişət sularından zərərli qarışıqların ayrılmasında da seolitlərdən istifadə edilir.

Seolitlər insanlığın qarşısında duran üç vacib problemin həllində mühüm rol oynayır: effektiv enerjini qoruyan proseslərin inkişafı; kənd təsərrüfatı məhsullarının məhsuldarlığının artırılması; sənaye və urbaniləşmənin inkişafı nəticəsində yaranan ekoloji problemlərin həlli.

Qeyd edək ki, həmin nüfuzlu jurnalda müəllifin iki məqaləsi çap olunub.

Günel Məmmədova həm də Rusiya Federasiyasının Krasnoyarsk şəhərində fəaliyyət göstərən Elmi-innovasiya mərkəzi tərəfindən elmi tədqiqatların inkişafındakı roluna görə Fəxri fərmanla təltif olunub.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Dekabr ayı üçün əmək pensiyalarının maliyyələşdirilməsi vaxtından əvvəl yekunlaşdırılıb

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu 2016-cı ilin dekabr ayı üçün əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırıb.***

Pensiyaların maliyyələşdirilməsi üçün tələb olunan vəsait fondun xəzinə hesabından yerli orqanların xəzinə hesablarına köçürülüb. Həmçinin yerlərdə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların da əmək pensiyaçılarının plastik bankomat kartlarına köçürülməsi başa çatdırılıb, məcburi dövlət sosial sığorta ödəmələri almaq hüququ olan sığortaolunanların plastik bankomat kart hesablarına və ya poçt ünvanlarına müavinətlərin ödənilməsi üçün vəsaitin köçürülməsi yekunlaşdırılıb.

Məqsədyönlü tədbirlərin nəticəsi kimi muxtar respublikamızda təyin olunmuş pensiyaların müasir ödəniş vasitəsi – plastik kartlar vasitəsilə pensiyaçılara vaxtında çatdırılması uğurla həyata keçirilir. Bu məqsədlə müvafiq banklar tərəfindən istifadəyə verilən bankomatlardan səmərəli istifadə olunur. Naxçıvan şəhərində yaşayan əmək pensiyaçıları ilə bərabər, muxtar respublikanın kəndlərində yaşayan əmək pensiyaçıları da yaşadığı məntəqədən kənara getmədən kənd yerlərində yerləşdirilən bankomatlardan istifadə edirlər. Muxtar respublika üzrə əmək pensiyaçılarının 100 faizi öz pensiyalarını plastik bankomat kartları vasitəsilə alırlar.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Xarici dillərin tədqiqi və tədrisinin aktual problemləri

### *Naxçıvan Dövlət Universitetində bu mövzuda elmi konfrans keçirilib*

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor Saleh Məhərrəmov dilin xalqların həyatındakı rolundan, ümummilli lider Heydər Əliyevin Azərbaycan dilinin inkişafındakı əvəzsiz xidmətlərindən, eləcə də xarici dillərin tədrisinin və öyrənilməsinin əhəmiyyətindən danışıb. Qeyd olunub ki, dil ünsiyyət vasitəsi olmaqla yanaşı, dünya xalqlarına milli mədəniyyəti, tarixi, adət-ənənələri çatdırmaq və təbliğ etmək üçün müfəssəl bir vasitədir.

Rus dili və ədəbiyyatı kafedrasının dosenti Qurban Qurbanlı "Naxçıvan Dövlət Universitetində xarici dillər üzrə mütəxəssis hazırlığı: tarix, reallıqlar və perspektivlər" adlı məruzəsində bildirib ki, Azərbaycanın qabaqcıl ali təhsil ocaqlarından olan Naxçıvan Dövlət Universitetində ingilis, fransız, alman, rus, ərəb və fars dilləri olmaqla, altı xarici dil üzrə pedaqoji və tərcümə yönlü mütəxəssis hazırlığı aparılır. 2012-2013-cü tədris ilində isə İngilis dili müəllimliyi ixtisası üzrə qiyabi təhsil formasında kadr hazırlığına başlanıb, eləcə də əlavə ali təhsil qaydasında da İngilis dili müəllimliyi ixtisası üzrə kadr hazırlığı işi həyata keçirilir. Ali məktəbin müəllimləri müxtəlif beynəlxalq layihələr çərçivəsində Avropa ölkələrinin qabaqcıl tədris ocaqlarında təcrübələrdə olub, oradakı tədris prosesində iştirak edib, dil laboratoriyaları və sinxron tərcümə kabinələrinin işi ilə yaxından tanış olublar.



Azərbaycan dilçiliyi kafedrasının professoru Sədaqət Həsənova "Xarici dillərin tədrisində ana dilinin yeri və rolu" adlı məruzəsində diqqətə çatdırıb ki, bu gün müstəqil Azərbaycan Respublikası inkişafının yeni mərhələsini yaşayır və belə bir mərhələdə müxtəlif xarici dillər bu inkişafdan kənarda qala bilməz. Professor vurğulayıb ki, başəri dəyərlər milli dəyərlərin iflasına gətirib çıxarmamalıdır, əksinə, müəllim bildiklərini milli dəyərlər əsasında tətbiq etməyi bacarmalıdır.

İngilis dili və metodika kafedrasının müdiri Mirhəsən Eminov "Xarici dil kimi ingilis dilinin tədrisi metodikasının aktual problemləri" mövzusunda məruzə ilə çıxış edib.

Konfrans "İngilis dili və onun tədrisi", "Rus dili və onun tədrisi", "Roman-german dilləri və onların tədrisi" adlı bölmə iclasları ilə işini davam etdirib.

**Nərmin CABBAROVA**

## Tələbə rəssamların hesabat sərgisi

***Naxçıvan Dövlət Universitetində Təsviri incəsənət kafedrasının müəllim və tələbələrinin əsərlərindən ibarət hesabat sərgi təşkil edilib.***

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov sərginin açılışında çıxış edərək təsviri sənət əsərlərinin bədii-estetik baxımdan mühüm dəyər kəsb etdiyini vurğulayıb. Rektor hesabat sərgisini tələbələr üçün sənət sınağı kimi dəyərləndirib, onlara öz yaradıcılıqları ilə müstəqil Azərbaycanı, milli-mənəvi dəyərlərimizi, Naxçıvanın qədim tarixi abidələrini, müasir inkişafını, əsrarəngiz təbiətini təbliğ etməyi tövsiyə edib.

Təsviri incəsənət kafedrasının müdiri, Xalq rəssamı, dosent Hüseynqulu Əliyev kafedranın illik fəaliyyəti, istedadlı tələbə-rəssamların müxtəlif sərgilərdə uğurla iştirak etmələri barədə məlumat verib. Kafedra müdiri yola salmaqda olduğumuz 2016-cı ildə universitetdə müxtəlif sərgilərin təşkil edildiyini xatırladıb, muxtar respublikada yaradıcı gənclər üçün yaradılan hərtərəfli şəraitdən danışıb.

Sonra sərgiyə baxış olub. Sərgidə dekorativ-tətbiqi sənət, rəngkarlıq, qrafika növünə aid əsərlər, mənzərə, plakat, natürmort janrlarında müxtəlif mövzularda əl işləri nümayiş etdirilib. Tələbələrdən Aynur İmanova, Maisə Şirinova, Gülnar Mahmudova, Nurlan Hüseynli, Gülçöhrə Bağırova və digərlərinin yağlı və sulu boya ilə çəkdikləri rəsm əsərləri, Aysel Süleymanova, Turanə Hüseynova, Nuray Cavadova, Vüsalə Musayevanın vitraj, mozaika növlərində işlədikləri əsərlər sərgi iştirakçılarında maraq doğurub.

**Mehriban SULTAN**

## Nağdsız ödənişlərlə bağlı növbəti seminar

*Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin təşkilatçılığı ilə nağdsız ödənişlərin əhəmiyyəti barədə 2016-2017-ci tədris ilində nəzərdə tutulan tədbirlərin biri də Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə keçirilib.*

"2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"a uyğun olaraq keçirilən bu tədbirdə liseyin müəllim və şagirdləri iştirak ediblər.

Tədbiri liseyin direktoru Çingiz Rzayev açaraq nağdsız ödənişlərin genişləndirilməsinin əhəmiyyətindən danışıb, vətəndaşların rahat şəkildə nağdsız ödəniş etmələri üçün yaradılmış müasir infrastrukturdan, bu sahədə rayonlarda aparılan maarifləndirmə tədbirlərinin vacibliyindən bəhs edib.

Seminarda Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin rəisi Tural Şirəlizadə çıxış edib. O, nağdsız ödənişlərin mahiyyəti və nağdsız əməliyyatların həcmindəki artımı şərtləndirən amillər barədə danışıb, bu sahənin inkişaf etdirilməsi istiqamətində mərkəzi bank və aidiyyəti dövlət qurumları tərəfindən həyata keçirilən işlər, əldə olunan nəticələr, bu nəticələrin muxtar respublika iqtisadiyyatına verdiyi töhfələrdən bəhs edib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Zahid Qənbərov "Nağdsız ödəniş üsullarının vergi daxilolmalarındakı artıma təsiri və iqtisadi səmərəliliyi" mövzusunda çıxış edib. Bildirib ki, nağdsız əməliyyatların genişləndirilməsi tədbirləri çərçivəsində 2016-cı ilin 1 dekabr tarixinə muxtar respublika ərazisində, ümumilikdə, 1191 ədəd POS-terminal elektron qaydada qeydiyyatdan keçirilərək quraşdırılıb. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq 2016-cı ilin geridə qalan 11 ayı ərzində muxtar respublikada POS-terminallar və digər ödəniş vasitələrilə aparılan nağdsız əməliyyatların həcmi 25 milyon 96 min 168 manata çatıb. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 8 milyon 457 min 147 manat çoxdur. Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və Vergilər Nazirliyi tərəfindən həyata keçirilən həvəsləndirici tədbirlər əhali arasında elektron ödəniş xidmətlərindən daha aktiv istifadəyə səbəb olub.

Çıxışlardan sonra sorğu anket vərəqələri paylanılıb və seminar iştirakçılarını maraqlandıran mövzularda müzakirələr olub.

Məlumat üçün bildirək ki, növbəti tədbirin Babək rayonunda keçirilməsi planlaşdırılır.

**Xəbərlər şöbəsi**

***Kəngərli Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Uşaq-gənclər şahmat məktəbinin birgə təşkilatçılığı ilə Kəngərli Rayon Şahmat Məktəbində keçirilən məktəblilər arasında şahmat turniri başa çatıb.***

## Şahmat birinciliyi

Yarışdan əvvəl rayon Gənclər və İdman İdarəsinin rəisi Vüsal Hüseynov və Uşaq-gənclər şahmat məktəbinin direktoru Rauf Heydərov çıxış edərək muxtar respublikada bədən tərbiyəsi və idmanın inkişafından, idmançılara göstərilən qayğıdan danışıblar.

Olimpiya sistemi ilə keçirilən turnirdə 40-a yaxın oğlan və qız qüvvəsini sınayıb. İki qrup üzrə keçirilən turnirin nəticəsinə əsasən, "A" qrupunda qalib adını Pərviz Rzayev qazanıb. Mais Abbasov ikinci, Novruz İsmayılov isə üçüncü olub. "B" qrupunda isə Kainat Tağıyev hamıdan güclü olub. Əflatun Nağıyev və Uğur Məmmədov digər pillələrdə qərarlaşıblar.

## Voleybol birinciliyi başa çatıb

Culfa şəhər 3 nömrəli tam orta məktəbin idman zalında rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının Culfa rayon bölməsinin birgə təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin qız şagirdləri arasında voleybol üzrə birincilik keçirilib. Birincilikdə 12 komanda mübarizə aparıb. Yarış əsasnaməyə uyğun olaraq olimpiya sistemi ilə keçirilib.

Rayon Gənclər və İdman İdarəsinin rəisi Ümüd Həsənli, Təhsil Şöbəsinin müdiri Adəm Qasımov çıxış edərək keçirilən tədbirin mahiyyəti barədə tədbir iştirakçılarına məlumat veriblər.

Birincilikdə Culfa şəhər 3 nömrəli tam orta məktəbin komandası qalib adını qazanıb. Camaldın və Əbrəqunus kənd tam orta məktəblərinin komandaları isə ikinci və üçüncü olublar.

Qalib komandalara və fərqlənən idmançılara təşkilatçılar tərəfindən kubok, diplom və hədiyyələr təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Haqverdiyev İsmayıl Yaqub oğlunun adına Naxçıvan şəhər 12 nömrəli tam orta məktəb tərəfindən verilmiş ümumi orta təhsil haqqında şəhadətnamə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 937